**22.10.2022: xəbər**

**Effective cooperation established between Khazar University and the Mediation Organization**

On October 18, 2022, a meeting was held with the administration of Mediation Organization Baku No.15 at Khazar University.

Rector of Khazar University Irade Khalilova, Dean of the School of Economics and Management Jeyhun Mammadov, Member of the Mediation Council, Director of Mediation Organization Baku No. 15 Gasim Shaliyev and National Mediation Trainer Natig Mammadov took part in the meeting.

A memorandum was signed between Khazar University and Baku Mediation Organization No. 15 at the meeting where the establishment of mutual cooperation was discussed in detail.

According to the memorandum, in scientific and scientific-practical conferences, seminars and forums held to create mediation traditions in the business environment, to apply the world's leading mediation achievements to the development of local entrepreneurship, to educate entrepreneurship subjects in this field and to assist in the development of their activities, the scientific staff of the University and the specialists of the Mediation Organization will work together in the study of the relevant experience and the formation of scientific basis.

Within the framework of that memorandum, the Mediation Organization will create conditions for the University's students majoring in mediation, economics, finance, business and management to connect the research, course and graduation works, and the dissertation topics of the master's students with the content of the projects implemented by the Organization.

According to the agreement, university students will learn negotiation and mediation in business conflicts at the Mediation Organization, and participate in daily seminars and practical programs, in order to train competitive local personnel in mediation, economics, business and management specialties based on partnership with world-renowned universities. A number of websites published news about the event.

**Xəzər Universiteti ilə Mediasiya Təşkilatı arasında səmərəli əməkdaşlıq qurulur**

2022-ci il oktyabrın 18-də Xəzər Universitetində Bakı 15 saylı Mediasiya Təşkilatının rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Mediasiya Şurasının üzvü, Bakı 15 saylı Mediasiya Təşkilatının direktoru Qasım Şaliyev və Mediasiya üzrə milli təlimçi Natiq Məmmədov iştirak edib.

Qarşılıqlı əməkdaşlın qurulmasının ətraflı müzakirə olunduğu görüşdə Xəzər Universiteti ilə Bakı 15 saylı Mediasiya Təşkilatı memorandum imzalanıb.

Memoranduma əsasən, biznes mühitində mediasiya ənənələrinin yaranması, dünyanın qabaqcıl mediasiya nailiyyətlərinin yerli sahibkarlığın inkişafına tətbiq edilməsi, bu sahədə sahibkarlıq subyektlərinin maarifləndirilməsi və fəaliyyətinin inkişafına köməklik göstərilməsi məqsədilə həyata keçirilən elmi və elmi-praktik konfrans, seminar və forumlarda Universitetin elmi heyəti ilə Mediasiya Təşkilatının mütəxəssisləri müvafiq təcrübənin öyrənilməsi və elmi əsaslarının formalaşdırılmasında birlikdə çalışacaqlar.

Həmin memorandum çərçivəsində Mediasiya Təşkilatı Universitetin mediasiya, iqtisadiyyat, maliyyə, biznes və idarəetmə ixtisasları üzrə təhsil alan tələbələrinin tədqiqat-araşdırma, kurs və buraxılış işlərinin, magistrantların dissertasiya mövzularının Təşkilatın həyata keçirdiyi layihələrin məzmunu ilə əlaqələndirməsi üçün şərait yaradacaq.

Razılaşmaya əsasən, dünyanın tanınmış universitetləri ilə tərəfdaşlıq əsasında mediasiya, iqtisadiyyat, biznes və idarəetmə ixtisasları üzrə rəqabət qabiliyyətli yerli kadrların hazırlanması məqsədilə universitet tələbələri Mediasiya Təşkilatında biznes konfliktlərində danışıqlar və mediasiya təcrübəsini öyrənəcək, günlük seminar və təcrübə proqramlarında iştirak edəcəklər.

Bir sıra saytlar tədbir barədə xəbər yayımlayıb.

https://qaynarinfo.az/az/mediasiya-sahesinde-noevbeti-semereli-emekdasliq-qurulur və s.


Khazar

